# MÜASİR TEATR SORAĞINDA




Azərbaycan teatrının bu günün tələblərinə cavab verən çağdaş bir teatr kimi formalaşdırılmasında ona dərindən bələd olan, mövcud sosial-iqtisadi münasibətlər şəraitində gələcək inkişaf potensialını realizə etmək perspektivlərini aşkarlayan teatr xadimlərinin üzərinə tarixi bir missiya düşür. Teatr sferasındakı ardıcıl fəaliyyəti ilə bu missiyanı layiqincə yerinə yetirən, çağdaş teatrın yaradılması üçün yorulmadan çalışan teatr xadimlərindən biri də Ədalət Vəliyevdir. İstedadı, yüksək peşəkarlıq qabiliyyəti, ən əsası isə sənətə sonsuz məhəbbəti ilə seçilən Ədalət Vəliyev "teatr adamı"dır. Bu ibarənin ancaq gəlişigözəl söz olmadığına əmin olmaq üçün Ədalət Vəliyevin həyat tarixçəsinə qısaca nəzər salmaq kifayətdir.

Vəliyev Ədalət Məqsəd oğlu 1959-cı ildə anadan olub. Bakı şəhərindəki 102 saylı orta və 21 saylı musiqi məktəblərində təhsil alıb. Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirib. 1980-ci ildə orduda həqiqi hərbi xidmətini başa vurduqdan sonra Azərbaycan Dövlət Akademik Milli Dram teatrında çalışmağa başlayıb. Burada səhnə fəhləsi kimi fəaliyyətə başlayan Ədalət Vəliyev bacarığı, istedadı ilə sənətin sirlərinə bələd olaraq quruluş hissə müdirinin müavini, sərəncamçı direktor vəzifələrini icra edib. Azərbaycan Dövlət Rus Dram Teatrının direktor müavini və direktoru olub. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirinin müavinidir.

Azərbaycan Teatr Xadimləri İttifaqı İdarə heyətinin, Milli Teatrın İnkişaf Fondunun, Respublika Mədəniyyət İşçiləri Azad Həmkarlar İttifaqı Rəyasət heyətinin, Mədəniyyət Fondunun, "Mədəniyyət" və "Yaddaş" qəzetlərinin, "Mədəni-Maarif" və "İncəsənət" jurnallarının redaksiya heyətinin üzvüdür. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyətlə məşğuldur.

"Çağdaş Azərbaycan teatrının təşkilatlanma problemləri" mövzusunda dissertasiya müdafiə edib.

2003-cü ildə "Elm" nəşriyyatında "Azərbaycan milli teatr prosesinin çağdaş təşkilatlanma problemləri" adlı monoqrafiyası nəşr olunub.

Müxtəlif mətbuat orqanlarında dərc olunmuş onlarla məqalə və publisistik yazıların müəllifidir.

2005-ci ildə Azərbaycan mədəniyyəti qarşısındakı xidmətlərinə görə "Qızıl Dərviş" və "Humay" mükafatlarına layiq görülmüşdür.

Bu məlumatlardan aydın görünür ki, Ədalət Vəliyev ömrünün böyük bir hissəsini teatra həsr edib. Hələ tələbə ikən səhnə fəhləsi kimi sehrli məbədə ayaq basan Ədalət Vəliyev əbədi olaraq bu sənətə bağlanıb. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında səhnə fəhləsindən sərəncamçı direktor vəzifəsinə qədər yüksələn bu teatr xadimi Rus Dram Teatrının ən ağır günlərində oraya direktor təyin edilib. "Dilənçi teatrı milyonçu teatra çevirərək" mədəniyyət aləmində təsadüfi adam olmadığını bir daha sübuta yetirib. Azərbaycan Respublikasının Mədəniyyət nazirinin müavini vəzifəsində çalışdığı müddətdə "ömrünü Azərbaycan mədəniyyətinin inkişafına, onun dirçəldilməsinə sərf edəcəyinə" qərar vermiş Ədalət Vəliyev mədəniyyətimizin bütün sahələrinin, ələlxüsus teatr sənətinin tərəqqisi üçün əlindən gələni əsirgəməyib. Dövlət məmuru kimi fəaliyyət göstərməklə yanaşı, həm də elmi-pedaqoji fəaliyyətlə məşğul olan Ədalət Vəliyevin 2003-cü ildə "Elm" nəşriyyatında çapdan çıxmış "Azərbaycan milli teatr prosesinin çağdaş təşkilatlanma problemləri" adlı monoqrafiyasında bazar iqtisadiyyatı şəraitində teatr industriyasının varolma şərtləri araşdırılır və Azərbaycan Respublikasında teatrın çağdaş təşkilatlanma prinsipləri təhlil olunur.

Ədalət Vəliyevin 2005-ci ildə "Orxan" nəşriyyatında çap olunan "Teatr sənətimiz: dünən, bu gün, sabah" adlı kitabı teatr ictimaiy-

yəti tərəfindən böyük sevinc hissi ilə qarşılandı. Kitabın elmi redaktoru və "Yaratmaq və yaratmaq istedadı" adlı ön sözün müəllifi Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, sənətşünaslıq doktoru, professor İnqilab Kərimovdur. Kitabda müəllifin müxtəlif illərdə ayrı-ayrı mətbuat orqanlarında çap olunmuş elmi-nəzəri, publisistik məqalələri və müsahibələri toplanmışdır.

İki bölmədən ibarət olan bu kitabın birinci bölməsi "Müasir teatr problemləri (nəzəri və praktik düşüncələr)", ikinci bölməsi isə "Mədəniyyətimizin sabahına inanıram (müsahibələr, mülahizələr)" adlanır.

Birinci bölmədə müəllifin "Ədəbiyyat və incəsənət", "Azərbaycan gəncləri", "Ədəbiyyat", "Yaddaş", "Xalq" qəzetlərində və "Ulduz", "Mədəni-Maarif", "Azərbaycan" jurnallarında çap olunmuş 24 məqaləsi toplanıb. Ayrı-ayrı dövrlərdə qələmə alınmış bu məqalələr teatr mühitində baş verən proseslərin ümumi mənzərəsini əks etdirir. "Teatr və zaman", "Milli teatr: yeni əsrin çağırışları", "Teatr: böyük məsələlərin kiçik sırası", "Yeniləşmə əzmi", "Qanunlar gerçəkliyi və gerçək qanunlar", "Teatr prosesinin çağdaş təşkilatlanmasının bədii-estetik aspekti", "Kommersiya teatrında prodüserlik strukturu" kimi məqalələrdə müəllifin hələ "Azərbaycan milli teatr prosesinin çağdaş təşkilatlanma problemləri" monoqrafiyasında teatr ictimaiyyətinin müzakirəsinə çıxardığı teatrın dövrün tələblərinə uyğun çağdaş təşkilatlanması probleminə yenidən nəzər salınır, bu problemlərin həllinin optimal yolları göstərilir. Sovet dövləti dağıldıqdan sonra tamamilə yeni səciyyələr əxz edən ictimai-iqtisadi, sosial-mədəni münasibətlər kontekstində yeni bir sistemin yaradılmasının zəruriliyi vurğulanır. Müəllif bu sistemin yaradılmasında zəngin teatr ənənəmizdən və dünya teatrının milli mənəvi keyfiyyətlərimizə zidd olmayan qabaqcıl təcrübəsindən yararlanmağı məqbul sayır.

"Azərbaycan" jurnalında (2000-ci il № 3) dərc olunan "Yeniləşmə əzmi" adlı məqaləsində Ədalət Vəliyev çağdaş təşkilatlanmanı və onun təməli prinsiplərinin yaradılması zamanı "ümumbəşər mədəniyyətinin (konkret halda teatrın - M.Ə.) potensiallarından faydalanmağı" dövrün tələbi kimi qarşıya qoyur. "...Dünya mədəniyyətinə inteqrasiya olunmağı qarşımıza məqsəd kimi qoymuşuqsa, universal model və əlaqə kanallarından istifadə etməyimiz qaçılmazdır. Aydın məsələdir ki, ənənəvi, klassik, milli mədəniyyət və incəsənətimizin bütün potensiallarından fəal və düşünülmüş formada faydalanaraq çağdaş teatr modellərinin universallığından istifadə edilməsi dövrümüzün tələbidir".

Ədalət Vəliyev "Mədəni-Maarif" jurnalında (2000-ci il № 1) çap olunan "Teatr məkanında birləşən dünyamız" adlı məqalədə "teatr məkanı" anlayışına aydınlıq gətirir. Qərbi Avropa və Amerika teatr modelində mövcud olan struktur elementlərini Qərb teatr prosesində monitorinq (aktual izləmə) metodikasının səciyyəvi xüsusiyyətlərini analiz etdikdən sonra Azərbaycan teatrının dünya teatr proseslərinə inteqrasiya olunması üçün vacib olan şərtləri sadalayır:

"Birincisi: milli teatrımızın çağdaş təşkilatlanmasını daha konstruktiv və operativ şəkildə aparmaq üçün Qərbi Avropa və Amerika teatr proseslərinin təcrübəsindən, xüsusilə köklü məsələlərin həllində faydalana bilərik.

İkincisi: teatr prosesinin çağdaş tələblərini dövlətin mədəniyyət siyasəti ilə uzlaşdırmaq üçün hal-hazırda təzadlı kimi görünən bir sıra problemlərin elmi-nəzəri həlli zəruridir.

Üçüncüsü: başqa mədəniyyətlərin nailiyyətlərini mexaniki şəkildə milli mədəniyyətimizə köçürməmək üçün aşkarladığımız prinsiplərə tənqidi yanaşmaq və yalnız yaradıcı əməliyyatlardan sonra müvafiq sistem və strukturların qurulmasına başlamaq olar.

Dördüncüsü: hər hansı çağdaş təşkilatlanma model və prinsiplərinə müraciət etdikdə teatr prosesinin strateji məqsədlərini nəzərə almalıyıq.

Beşincisi: dünya teatr prosesinə və təşkilatlanmanın məkanlarına inteqrasiya olunmaq üçün mövcud sistemin qanun və tələblərini öyrənib, praktiki təcəssümlərdə onları əks etdirməliyik".

"Ulduz" jurnalında (2000-ci il № 1) dərc olunan bir başqa məqaləsində müəllif bu istiqamətdə mülahizələrini davam etdirir, teatr prosesinin çağdaş təşkilatlanmasında bilavasitə iştirak edən obyektiv (strukturlaşma, sosial təminat, menecment, marketinq) və subyektiv (insan amili, sosial-psixoloji) faktorları təhlil edərək günümüzün tələblərinə cavab verən çağdaş teatrın strukturunu təqdim edir: "Yeni dövrə uyğun olan teatr strukturu aşağıdakı şərtlərə cavab verməlidir: struktur sistemi və elementləri arasında əlaqə canlı və mütəhərrik olmalıdır; strukturun şəffaflığı və yaranmış bütün problemlərə operativ müdaxiləyə açıq olması vacibdir; strukturun inzibati qurumu çağdaş elmi əsaslar üzərində qurulmalı və öz məqsəd və vəzifələrinə yad hər hansı funksiyadan azad olmalıdır; infrastruktur kimi mövcud olan struktur makrostrukturla canlı əlaqələr qurmalı və ümumi proseslərdə məhsuldar iştirakını təmin etməlidir".



"Azərbaycan gəncləri" qəzetinin 23 iyun 1993-cü il sayında çap olunan "Türkiyə səni alqışlayır, Azərbaycan" başlıqlı məqalədə müəllif Akademik Milli Dram Teatrının 1989-cu ilin sentyabr ayının sonlarında Türkiyəyə qastrol səfərinə yollanması, orada İlyas Əfəndiyevin "Bizim qəribə taleyimiz" və "Sevgililərin cəhənnəmdə vüsalı" tamaşalarının nümayişi və türk tamaşaçıları tərəfindən rəğbətlə qarşılanması barədə məlumat verir, belə qastrol səfərlərinin teatrın inkişafında səmərəli təsirini xüsusi vurğulayır. Ə.Vəliyevin hər hansı bir mədəni aksiya ilə bağlı informativ funksiya daşıyan digər məqalələri də oxucunun böyük marağına səbəb olur.

"Mədəni-Maarif" jurnalında (2002-ci il № 10) dərc olunan "Pantomima haqqında düşüncələr" məqaləsində pantomima teatr formasının ənənələri öyrənilir, yaranması və inkişaf tarixi araşdırılır, bu gün Azərbaycanda pantomim teatrının durumu təhlilə çəkilir.

"Teatr sənətimiz: dünən, bu gün, sabah" kitabının "Mədəniyyətimizin sabahına inanıram (müsahibələr, mülahizələr)" adlanan ikinci fəslində Ədalət Vəliyevin müxtəlif mətbu orqanlarının səhifələrində Azərbaycan, rus, türk dillərində dərc olunmuş müsahibələri toplanılıb. Bu müsahibələri oxuyarkən Ədalət Vəliyevin hələ çox gənc yaşlarından teatr sənətinin bütün incəliklərinə bələd olluğunun, ömrünü həsr etdiyi bu sənətin problemlərinin həlli yolunda səylə çalışdığının şahidi oluruq. Müsahibələrdə Ədalət Vəliyev teatrımızın ən ciddi və köklü problemlərini dilə gətirir, onların həlli yollarını göstərir.

Ədalət Vəliyevə xas olan ən gözəl keyfiyyətlərdən biri də nizam-intizamdır. Məhz bu nizam-intizamla Ədalət Vəliyev işlədiyi bütün vəzifələrdə ona bəslənən etimadı doğruldub, çalışdığı sənət sferasında müvəffəqiyyətlər qazana bilib. "Bakı" qəzetinə verdiyi müsahibədə Ədalət Vəliyev intizamı öz işində hər şeydən üstün tutduğunu vurğulayır. "İntizam olmadan heç bir yerdə iş getmir. İntizamsız kollektiv komandirini itirmiş orduya bənzəyir". Ən çox təqdir edilməsi hal isə ondan ibarətdir ki, Ədalət Vəliyev yalnız tabeçiliyində olanlara deyil, ilk növbədə özünə qarşı tələbkardır.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı uzunmüddətli təmirə bağlanan zaman "Azərbaycan" qəzetinin əməkdaşı Flora Xəlilzadənin teatrda təmir işinin nə vaxt başa çatacağı haqqında sualına Ədalət Vəliyev "Noyabrın 17-də - Milli Dirçəliş günümüzdə bütün teatr həvəskarlarını sevindirəcəyik" - deyə cavab verir. F.Xəlilzadə "Ədalət müəllim, olmadı belə, oldu elə, bəs onda?" - deyə təkrar soruşduqda, o, - "Həmin gün istefa verərəm" - sözləri ilə jurnalistin sualını qəti şəkildə cavablandırır. Bu cavab onun özünə qarşı tələbkarlığının və vəzifəsinə ciddi münasibətinin ən bariz sübutudur.

Ədalət Vəliyevin bu kitabını oxuduqda bir həqiqət gün kimi aydın olur: Azərbaycan teatrları köhnə, çağdaş münasibətlər kontekstində səmərəsiz sistemlər daxilində işləməkdən hələ ki yaxa qurtara bilməyib. "Yüz ildən çox tarixi olan milli teatr sənətimizin təşkilatlanma prosesinin ilkin mərhələsinin sərbəst, üzvi şəkildə, ikinci mərhələsinin isə dövlət sistemi tərkibində", totalitar rejimin təsiri altında baş verməsindən qaynaqlanan bir sıra problemlər teatrın inkişafını hələ də buxovlayır. Teatr poliativ (yarıçarə) bir halətdə problemlər məngənəsində çabalayır.

Amma bu həyəcan və Azərbaycan teatrının gələcəyi üçün əndişə müəllifin nikbin proqnozu ilə aradan qalxır: "Tam qətiyyətlə söyləmək olar ki, milli teatr prosesinin təşkilatlanma imkanları və meylləri tükənməyib və kifayət qədər güclü potensiala malikdir". "...Teatr sənətinin rolu və əhəmiyyəti XXI əsrdə xeyli artacaqdır".

***Müəllifin ağır zəhmətinin və səmərəli elmi axtarışlarının bəhrəsi olan bu kitab çağdaş teatrın bir sıra təşkilati, maddi-texniki, sosial-ictimai səciyyələrini işıqlandırır. Heç şəksiz ki, XXI əsr teatrının sorağında olan "Teatr: dünən, bu gün, sabah" adlı bu kitab istər teatr mütəxəssislərinə, istər sənətkarlara, istərsə də geniş oxucu kütləsinə Ədalət Vəliyevin böyük töhfəsi olmaqla yanaşı, həm də şərəfli missiyanın daşıyıcısı olan müəllifin mürəkkəb sənət yaşantılarını və düşüncələrini özündə ifadə edən səmərəli ömrün bir səhifəsidir.***

***Məryəm ƏLİZADƏ,***
***sənətşünaslıq doktoru, professor***